# Dünyaya örnək Bìrìncì xanım

***Hər bir xalq özünün layiqli övladları, yetişdirmələri ilə dünyada tanınır, uğur qazanır. Hər bir toplumu, kütləni xalqa, millətə çevirən onun parlaq, işıqlı zəka sahibləri, öndə gedən layiqli övladlarıdır. Bu baxımdan xalqımızı, millətimizi bəxti, şansı gətirənlərdən saymaq olar. Çünki yüzilliklərdən bu yana Azərbaycan xalqının hər bir dönəmində qismətində çox böyük oğul və qızları, mütərəqqi, parlaq zəkalı, tarixi şəxsiyyətləri, ziyalıları olub. Onlar hər biri öz fəaliyyəti ilə həm xalqımızın, dövlətçiliyimizin tarixinə, həm də bəşər tarixinə öz möhürlərini vurub, adlarını yaddaşlara qızıl hərflərlə həkk etdilər.***







Azərbaycan xalqının belə layiqli övladlarından, parlaq zəka sahibi olan Vətən sevdalılarından biri də Birinci vitse-prezidentimiz, ölkənin Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri, sabiq həmkarımız - əslində o, hər zaman millətin vəkili olub, bu gün də mandat daşımasa belə millətin vəkildir - Mehriban xanım Əliyevadır. Mehriban xanım Azərbaycanın ən tanınmış ziyalı ailəsindən - Paşayevlər və İmanquliyevlər nəslindəndir. Həm də XX əsrin ən böyük tarixi şəxsiyyətlərindən, müstəqil Azərbaycanın qurucusu və memarı olan ulu öndərimiz Heydər Əliyev - Əliyevlər ocağının təmsilçisi, nümayəndəsidir. Mehriban xanım həm əsl Azərbaycan qızı, həm əsl Azərbaycan xanımı, Azərbaycan anası, Azərbaycan ziyalısı, dövlət və siyasət adamıdır. Bütün bu yüksək və ali keyfiyyətlər hamısı Mehriban xanımda var. Mehriban xanım istər zamanında həkimlik, istərsə də ictimai, siyasi, humanitar fəaliyyəti ilə məşğul olduğu dövrdə digərlərindən fərqlənib, seçilib, harada olubsa, öz imzasını atıb. Bütün bunları Mehriban xanım öz istedadı, bacarığı, titanik və yorulmaz, Azərbaycan naminə fəaliyyəti ilə bir ömrə sığışdıra bilib. Mehriban xanım eyni zamanda Qalib Azərbaycanın Qalib və Müzəffər Ali Baş Komandanı, Azərbaycanı son 21 ildə sözün əsl və həqiqi mənasında Qələbələrdən Qələbələrə, Zəfərlərdən Zəfərlərə aparan, Qarabağına, işğaldan azad olunmuş torpaqlarına qovuşduran ölkə Prezidenti cənab İlham Əliyevin ən yaxın, ən sadiq, ən etibarlı silahdaşıdır. Onlar qoşa qanaddır və hər addımları ilə də Tarix, Dastan yazır, Azərbaycanın imzasını imzalar içində tanıdırlar. Elə məhz bu səbəbdəndir ki, 7 il öncə ölkə Prezidenti Birinci vitse-prezidenti vəzifəsinə Mehriban xanımı təyin etdi və bu, həm də güvən, etimad və etibar idi. Ölkə Prezidenti bilirdi və əmin idi ki, bütün sahələrdə, bütün məsələlərdə, üzərinə, çiyinlərinə düşən bütün ağır və məsuliyyətli işlərdə hər zaman etimadı doğruldan Mehriban xanım bu çətin vəzifənin də öhdəsindən tam layiqincə gələcək, ona olan etimadı doğruldacaq. Son 7 ildə yaşananlar, baş verənlər, şahidi olduqlarımız, Mehriban xanımın parlaq fəaliyyəti də deyilənlərin əyani sübutu və təsdiqidir. Hər bir məsələdə, hər bir vəzifədə olduğu kimi, bu ali dövlət vəzifəsində də Mehriban xanım hər zaman Azərbaycan insanının, Azərbaycan vətəndaşının yanında oldu və bu gün də yanındadır. Bu illər ərzində həm ona yüksək etimad göstərən Prezidentimiz cənab İlham Əliyevin, həm də bütövlükdə cəmiyyətimizin, Azərbaycan vətəndaşının etimadını, güvənini tam mənada doğruldub və bu gün də doğruldur. Üzərinə düşən, öhdəsinə götürdüyü ağır, çətin, şərəfli missiyanı layiqincə, çox uğurla yerinə yetirir. Bu, elə hesab edirəm ki, bütövlükdə hər birimizin uğuru, iftixar hissi və qürur mənbəyidir. Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi günlərində və ondan sonra Qarabağımızda, işğaldan azad olunmuş yurd yerlərimizdə başlanan Dirçəliş, Böyük Qayıdış hərəkatında Mehriban xanımın rolu, fəaliyyəti misilsiz və ölçüyəgəlməzdir. Hər zaman şəhid ailələri və qazilərə həssas münasibəti ilə seçilən, fərqlənən Mehriban xanım Vətən müharibəsi günlərində də Qarabağın azad olunması yolunda sağlamlıqlarını itirmiş qazilərlə bir araya gəldi, onlara bir ana, bir bacı şəfqəti göstərdi. Çünki başqa cür də ola bilməzdi. Mehriban xanım Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri kimi çoxdan özünü dünyanın rəhm, mərhəmət, şəfqət simvolu olaraq tanıtmış və təsdiq etmişdir. Təşəbbüsçüsü, icraçısı, dəstəkçisi olduğu sosial-humanitar layihələrlə Mehriban xanım nəinki Azərbaycanda, onun hüdudlarından çox-çox uzaqlarda-qayğıya, mərhəmətə, şəfqətə, dayağa, köməyə ehtiyacı olanların ürəklərini fəth etmiş, onların qəlblərində özünə taxt ucaltmışdır. Bu, hər birimizin qüruru, hər birimizin iftixar hissidir. Qürur duyur, iftixar hissi keçiririk ki, dünyada mərhəmət və şəfqət simvoluna çevrilmiş Mehriban xanım məhz bizim - Azərbaycanın, Azərbaycan xalqının qızı, övladıdır. Odur ki, Vətən müharibəsi günlərində də tarixi Qələbə və Zəfərimizdən sonra da Mehriban xanım hər bir kəsin qəlbini fəth etməkdə, hər bir vətəndaşın, hər bir insanın yanında olmaqda davam etdi və bu gün də şərəfli missiyanı layiqincə davam etdirir.

Xeyirxahlıq, mərhəmət, insanpərvərlik nümunəsi olan Mehriban xanım Əliyevanın ölkə daxilində həyata keçirdiyi humanitar missiyası dövlətimiz tərəfindən yüksək dəyərləndirilmiş və Azərbaycanın ən ali dövlət mükafatlarına - "Heydər Əliyev" Ordeninə və Heydər Əliyev Mükafatına layiq görülmüşdür. Xarici ölkələrin ali dövlət mükafatları sırasında isə xüsusi olaraq bunları qeyd etmək olar: Rusiyanın "Dostluq" və "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri, Vatikanın IX Piy Ordeninin Böyük Xaçı, Polşanın "Xidmətlərə görə" Böyük Komandor Xaçı, Pakistanın "Hilal-e Pakistan", Serbiyanın "Sreten", Macarıstanın "Xidmətlərə görə" Komandor Xaçı, Rus Pravoslav Kilsəsinin II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordenləri, UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Qızıl medalı, Krans Montana Forumunun Qızıl medalı və "Prix de la Fondation" mükafatı, Avropa Olimpiya Komitələrinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qızıl medalı, Küveyt Dövlətinin Fəxri diplomu, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, "Qızıl ürək" beynəlxalq mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı.

Mehriban xanım Əliyeva, eyni zamanda Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktoru seçilmişdir. Bəli, bütün bunlar Mehriban xanımın uğuru olmaqla, həm də Azərbaycan adına qazanılan uğurlar, nailiyyətlər, təltiflərdir. Yarandığı, fəaliyyətə başladığı gündən xeyriyyəçiliyi, rəhmi, mərhəməti, şəfqəti özü üçün deviz seçən Heydər Əliyev Fondu 20 il ərzində böyük uğurlara nail olub, böyük zəfərlərə imza atıb. Ölkənin Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü, iştirakı, xeyir-duası ilə düz 20 il öncə yüksək amallar naminə yola çıxan, qarşısına böyük hədəflər qoyan Heydər Əliyev Fondu fəaliyyəti ilə nəinki Azərbaycanda, onun sərhədlərindən çox-çox uzaqlarda tanınıb, şöhrətlənib. Həm özü tanınıb, həm də Azərbaycanı tanıdıb. O, Azərbaycanda və dünyada - harada, hansı uzaqlıqda yaşamasından asılı olmayaraq, yardıma, köməyə, dəstəyə ehtiyacı olan insanların yanında olub, onların harayına, imdadına yetişib, onların himayəçisinə, himayədarına çevrilib, onlara ana, bacı, övlad məhəbbəti, sevgisi, şəfqəti göstərib. Heç kimdən, heç kəsdən mərhəmətini, şəfqətini əsirgəməyib. Onlarla ağlayıb, onlarla kədərlənib, onlarla gülüb, onlarla birgə sevinib, şadlanıb. Budur, Mehriban Əliyeva sevgisi, şəfqəti, nümunəsi. Mehriban Əliyevanın birbaşa təşəbbüsü və iştirakı ilə illər öncə Azərbaycanda (o cümlədən dünyanın bir neçə ölkəsində) böyük layihələrə başlanılıb. Həmin layihələrdən, Fondun icra etdiyi nəhəng proqramlardan biri məhz "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır ki, ötən illər ərzində ölkənin elə bir bölgəsi, guşəsi qalmayıb ki, oranı əhatə etməsin.

Heydər Əliyev Fondunun layihələri əsasında minlərlə uşaq bağçası, məktəblər tikilib və müasir standartlara uyğun təmir olunub. Mehriban xanımın humanist, xeyirxahlıq fəaliyyəti yalnız ölkə daxili ilə məhdudlaşmır, ölkə miqyasından kənara çıxaraq beynəlxalq humanitar təşəbbüsə çevrilib. Belə ki, digər ölkələrdə də məktəblər tikilir və təmir olunur. Pakistanda, Gürcüstanda, Rusiyada, Hollandiyada, Misirdə həyata keçirilən layihələr buna misaldır. Bəli, bunlar Mehriban xanımın təşəbbüsü, Azərbayan dövlətinin dəstəyi, Heydər Əliyev Fondunun rəhbərliyi ilə icra edilmiş, həyata keçirilmiş işlərin, sözügedən proqramın Azərbaycan xalqının, dövlətinin, təhsilinin inkişafına, Azərbaycanın işıqlı gələcəyinə, parlaq sabahına verdiyi əvəzsiz, misilsiz töhfələrdir. Çünki o dövlət, o cəmiyyət güclü olur ki, onun təhsili, təhsil sistemi güclü, rəqabətədavamlı və dayanıqlı olur. Odur ki, Heydər Əliyev Fondunun da qarşıya qoyduğu, hədəflədiyi ən mühüm məqamlardan, məqsədlərdən biri məhz təhsilimizin inkişafı, savadlı, bilikli, müasir və dəyərlərinə bağlı gəncliyin yetişdirilməsi, yüksək standartlara cavab verən modern təhsil müəssisələrinin olması, qurulub, yaradılmasıdır.

Ötən illər ərzində Heydər Əliyev Fondu əhalinin sağlamlığının qorunmasında da yaxından iştirak edir. Çünki ölkənin inkişafını xarakterizə edən əsas göstəricilərdən biri səhiyyə göstəriciləridir, orta yaş müddətidir, demoqrafik inkişafdır. Heydər Əliyev Fondunun bu istiqamətdə keçirdiyi layihələrlə tanış olduqda, onların mahiyyətini dərk etdikdə bir daha əminlik yaranır ki, Mehriban xanımın və Fondun fəaliyyəti səhiyyənin inkişafına da sistemli yanaşmanı ön plana çəkir. Çünki səhiyyə, əhalinin sağlamlığının təmin olunması ayrı-ayrı lokal tədbirlərlə deyil, ona sistemli yanaşma ilə ölçülür və sistemli yanaşmanı tələb edir. Bu baxımdan, Fondun bu istiqamətdə müəyyən etdiyi başlıca vəzifələrdən biri uşaq evləri və internatlardakı azyaşlı və yeniyetmələrə, şəhid, məcburi köçkün və aztəminatlı ailələrdən olan, habelə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım etməkdir. Eyni zamanda ötən illər ərzində onlarla xəstəxananın, sağlamlıq mərkəzlərinin tikilməsi və ya yüksək səviyyədə təmir edilərək istifayə verilməsi ən mühüm işlərdəndir. Bunlar hamısı Mehriban xanımın və rəhbərlik etdiyi Fondun təmənnasız xidmətləridir. Həmçinin Mehriban xanımın və Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycan mədəniyyətinin dünyada tanıdılması, təbliği məsələsidir. Bu yöndə atılan addımların nəticəsidir ki, bu gün Azərbaycan mədəniyyəti, xüsusilə, milli kimlik göstəricilərimizdən olan muğamımız, muğam sənətimiz özünün ikinci nəfəsini, inkişaf, intibah mərhələsini yaşayır. Bu gün Azərbaycan muğamı dünyaya səs salmaqda, ən geniş salonları, məkanları fəth edir. Ümumiyyətlə, hər il təşkil edilən beynəlxalq musiqi yarışmaları, nəinki Azərbaycanın, hətta dünyanın mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirilir. Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalı, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, Muğam Müsabiqəsi, Beynəlxalq Aşıq Festivalı kimi irimiqyaslı tədbirlər ifaçılıq sənətinin inkişafına əlverişli şərait yaratmaqla bərabər, xalqlar arasında mədəni əlaqələrin genişlənməsinə də xidmət edir.

Ümumiyyətlə, Mehriban xanım Əliyeva bütün həyatı boyu və ictimai siyasi fəaliyyəti dövründə ona göstərilən etimadın, həvalə olunan vəzifələrin öhdəsindən uğurla, şərəflə gəlib və bu gün də həmin missiyanı ləyaqətlə davam etdirir. Bu gün hər bir Azərbaycan vətəndaşı ona güvənir və inanır. Mehriban xanım da ona olan güvəni və etimadı həmişə doğruldub. Ümumiyyətlə, bütün uğurların, qələbələrin, zəfərlərin kökündə məhz inam və etimad dayanır. Bu baxımdan Mehriban xanımın fəaliyyətində və həyatında bu iki məqam daim qırmızı xətlə keçir. Hamı Mehriban xanıma mərhəmət, şəfqət ünvanı, rəmzi kimi baxır, yanaşır. Budur, Mehriban xanımın özəlliyi, budur, Mehriban xanımın müstəsnalığı. Bu gün hər birimiz fəxr edir və qürur hissi keçiririk ki, İlham Əliyev kimi Liderimiz, rəhbərimiz, Mehriban xanım kimi şəfqətli, mərhəmətli, rəhmli, ədalətli, xeyirxah Birinci vitse-prezidentimiz var. Mehriban xanım Əliyevanın gördüyü işlər saysız-hesabsız, ucsuz-bucaqsızdır, misilsizdir, ölçüyəgəlməzdir. Bu haqda saatlarla, günlərlə, həftələrlə danışmaq, yazmaq, cild-cild kitablar ortaya qoymaq olar. Ancaq atalar məsəlində də deyildiyi kimi, görünən dağa bələdçi nə lazım?! Hər şey göz qabağındadır, hər bir məsələdə də Azərbaycan insanı, Azərbaycan vətəndaşı diqqətdədir. Çünki Mehriban xanımın fəaliyyətinin ana xəttini insanlıq və Azərbaycan insanı təşkil edir.

**Kamilə ƏLİYEVA,**
**VI çağırış Milli Məclisin deputatı,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri,**
**Biologiya elmləri doktoru, professor.**

Respublika .- 2024.- 25 avqust, №182.- S.4.